# Aqrar sektorun inkişafı yeni mərhələdə

## Kənd təsərrüfatı kooperativlərinin yaradılması sürətləndirilir



**Yaxın vaxtlarda Azərbaycanda kənd təsərrüfatı kooperativləri fəaliyyətə başlaya bilər. Həmçinin yeni yaradılacaq kooperativlər üçün sığorta mexanizminin təkmilləşdirilməsi, kooperativlərə və kənd sakinlərinə göstərilən maliyyə-kredit xidmətlərinin genişləndirilməsi, kooperativlərin güzəştli şərtlərlə kreditləşməsinin təmin edilməsi, bu qurumların istehsal vasitələrinə olan tələbatının güzəştli lizinq şərtləri hesabına təmin edilməsi, onlara torpaq sahələrinin, gələcək məhsulların və tikinti obyektlərinin girov qoyulması yolu ilə kredit ayrılması və kooperativlər üçün kredit zəmanəti fondunun təsis edilməsi də planlaşdırılır.**

Bütün bunlar Milli Məclisdə I oxunuşda qəbul olunmuş "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsində nəzərdə tutulub. Bu qanun layihəsi kənd təsərrüfatı kooperasiyasının formalaşması və inkişafının, bu kooperativlərin təşkili və fəaliyyətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Qanun layihəsinin əsas müəlliflərindən olan parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, qanunun məqsədi Azərbaycanda kənd təsərrüfatı kooperativlərinin formalaşmasına və inkişafına təkan vermək, kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfatı müəssisələri yaratmaqdır. Həmçinin bu cür müəssisələrin istehsal potensialından səmərəli istifadə etməklə rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və məhsuldarlığı artırmaq, kooperativlərin iştirakçılarının iqtisadi, sosial və digər maraqlarını qorumaq da qanunun əsas məqsədidir.

Xatırladaq ki, kənd təsərrüfatı kooperativləri kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən öz maddi və sosial tələbatlarının ödənilməsi məqsədilə həyata keçirilən könüllü birgə fəaliyyət, bu cür kooperativlər kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə fəaliyyət göstərmək üçün kollektiv üzvlüyə əsaslanan könüllü birliyidir. Kənd təsərrüfatı kooperativləri maddi və sosial tələbatları üzvlərin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılan hüquqi şəxs statusuna malik olur. "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanuna əsasən, illik istehsalın 60 faizdən az olmayan hissəsini bitkiçilik, heyvandarlıq, kənd təsərrüfatı və su bioresurslarından, o cümlədən onların məhsullarının emalından əldə edən kooperativ kənd təsərrüfatı kooperativinə aid edilir. Kooperativlər dövlət və bələdiyyə orqanları və hüquqi şəxslərlə birlikdə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satış bazarlarının təşkilində iştirak edə və ya belə bazarları təşkil edə bilərlər. Kənd təsərrüfatı məhsulları bazarlarında kooperativlərə ticarət yerlərinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Kənd təsərrüfatı kooperativlərinin inkişafına dövlət dəstəyinin əsas istiqamətləri ölkənin aqrar məhsullara tələbatının ödənilməsi üçün məhsul bolluğunun yaradılması ilə yanaşı, Azərbaycanın ixrac potensialının da genişləndirilməsini stimullaşdırmaqdır. Bu məqsədlə kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən kiçik və orta sahibkarlığın dəstəklənməsi, əkin sahələrinin sığortalanması, məhsul istehsalçılarının güzəştli kreditlərə əlçatanlığının təmin edilməsi nəzərdə tutulur. Yaxın vaxtlarda, həmçinin kənd təsərrüfatında sığorta mexanizmlərinin hazırlanması, mövcud sığorta qaydalarının təkmilləşdirilməsi də planlaşdırılır. Məqsəd Azərbaycanda kiçik və orta miqyaslı aqrobiznes müəssisələrinin inkişafını dəstəkləməkdir.

Yeri gəlmişkən, son 10 ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 4 dəfə artıb. Bu müddətdə ölkəyə təxminən 200 milyard dollara yaxın investisiya cəlb edilib ki, həmin investisiyaların 52 faizi yerli mənbələr, 48 faizi isə xarici mənbələr hesabına formalaşıb. Prezident İlham Əliyevin təkcə son bir neçə ayda imzaladığı Fərman və sərəncamlar sahibkarlığın inkişafına əlavə təkan verir. Bu cür qərarların qəbulu həm kənd təsərrüfatı sektoruna investisiya qoyan sahibkarlar üçün biznes mühitinin yaxşılaşdırılmasına, həm bütövlükdə kiçik və orta sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılmasına, həm də kənd təsərrüfatı məhsulları istehsalının artmasına imkan yaradır.

Aqrar sektorun idarə olunmasının təkmilləşdirilməsi məqsədilə zəruri struktur islahatlarının aparılması da diqqət mərkəzindədir. Belə ki, aqrar sektorla bilavasitə əlaqəsi olan nazirlik və komitələrin öz fəaliyyətlərini qarşılıqlı şəkildə əlaqələndirə bilməsi istiqamətində də iş aparılır. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilərək onun səlahiyyətlərinin Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə verilməsi də məhz bu məqsədlərə xidmət edir. Dövlət Komitəsi torpaqların keyfiyyəti və idarə olunması, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti bilavasitə torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə torpaqların keyfiyyətinə, monitorinq nəzarəti ilə bağlı məsuliyyət daşıyacaq. Bundan əlavə, Milli Elmlər Akademiyasının nəzdində Aqrar Elm Mərkəzi, bu Mərkəzin tabeliyində bilavasitə aqrar sahə ilə məşğul olan institutlar var ki, orada kənd təsərrüfatı mütəxəssisləri hazırlanır, elmi araşdırma və tədqiqatlar aparırlar.

**Bəs, kənd təsərrüfatı kooperativlərinin yaradılması aqrar sektorda hansı dəyişikliyə səbəb olacaq?**

Ekspertlər hesab edirlər ki, kənd təsərrüfatı kooperativlərinin yaradılması hər şeydən əvvəl aqrar sektorun idarə olunmasında ciddi dəyişikliklərə gətirib çıxaracaq. Bu dəyişiklik isə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə bir neçə il əvvəl yaradılmış "Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı Xüsusi Komissiya"nın işləyib hazırladığı mexanizmlərə əsaslanır. Belə ki, Xüsusi Komissiya aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmlərdə islahatların yeni mərhələsinin həyata keçirilməsinə dair konkret mexanizmlər hazırlayıb. Məqsəd həm də kənd təsərrüfatı kooperativlərinin yaxın və uzaq perspektivlərini hesablamaqla onun həyata keçirilmə mexanizmlərini müəyyənləşdirməkdir. Kənd Təsərrüfatı Nazirliyi isə südçülük, maldarlığın inkişafı, torpaqların keyfiyyətinin artırılması, istixanaların, üzümçülüyün, pambıqçılığın, şəkər çuğundurunun inkişafına dair sahəvi proqramlar işləyib hazırlayacaq. Bu proqramlarda kənd təsərrüfatı sektorunda bütün prioritet sahələr üzrə tədbirlər, onun həyata keçirilməsi yolları, bu tədbirlərin gerçəkləşməsinə sərf olunacaq vəsaitlər, hər bir region üzrə aqrar sektorun inkişafına yönəldilmiş mexanizmləri əksini tapmalıdır. Bütün bunların həyata keçirilməsi nəticəsində kənd təsərrüfatının inkişafı üçün mövcud infrastruktur bir qədər də genişləndiriləcək. Kənd təsərrüfatının inkişafı üçün lazım olan infrastrukturun genişlənməsi isə öz növbəsində kənd əhalisinin sosial təminatının yüksəlməsinə şərait yaradacaq və belə olan halda aqrar sektoru irəli aparmaq xeyli asanlaşacaq.

**Elxan Salahov,**
***"İki sahil"***